# Azərbaycan Xalq Cümhuriyyəti - 100

Tarix təkrar olunur - dəfələrlə bunun şahidinə çevrilmişik. "Odlu yurd" qəzetində dərc edilmiş bir məqaləni oxuyarkən bir daha buna əmin olursan. Sən demə, 1920-ci ilin 3 aprelində Azərbaycan Ordusu Əsgəranda erməni qoşunlarını darmadağın etməklə xalqımıza ilk dəfə qələbə sevinci yaşadıbmış. 10-12 gün ərzində igid əsgərlərimiz hətta Şuşa və Xankəndini də azad edibmiş!

Ali Baş Komandan cənab İlham Əliyev bu hadisədən düz 96 il sonra - 2016-cı ilin aprelin 2-də həmin zəfəri bizlərə yenidən yaşatdı.

Əminik ki, növbəti aprel əməliyyatında Şuşa və Xankəndi də azad ediləcəkdir. Tarixin təkrarını göstərən məqaləni diqqətinizə çatdırırıq.

# Azərbaycan Ordusu haqqında

## *Bir zabitin xatiratından**

28 Mayıs istiqlal gününü yad edərkən Azərbaycan ordusunu xatırlamaq təbiidir. İstiqlalını elan edən azərilərin ilk hədəfi milli bir ordu təşkil etməkdi. Məlum olduğu üzrə azərilər çarlıq əsnasında xidməti-əskəriyyədən müaf idilər. Bu səbəblə Azərbaycan hökuməti milli ordu təşkil etmək xüsusunda pək mühüm müşkülat qarşısında bulunuyordu.

Gürcü və ermənilər Rusiyadan ayrılaraq elani-istiqlal etdikləri günün ərəfəsində hər növ silahlarla mücəhhəz milli əskəri qitəatə malik olduqları bir zamanda azərilər yalnız cahan müharibəsi ibtidalarında könüllü olaraq azərbaycanlılardan təşkil edilən bir süvari alayına malik idilər. İştə bu qüvvət həyati-siyasiyyəmizin ilk müşkük və müşkül dövründə böyük hizməti səbq edən müntəzəm və yeganə əskəri qüvvətimiz idi. Bu alay sair partizanlarla bərabər 1918 sənəsində Bakı və Şamaxı müsəlmanlarına təsəllüt edən bolşevik-daşnaq ordusunun irəliləməsinə məmaniət və qəhrəman əfradı da 1918 sənəsində qardaş Türkiyədən Azərbaycan imdadına şitab edən Anadolu xilaskarları ilə ruslara qarşı bir səfdə müharibə ediyordu.

Azərbaycan Cümhuriyyətinin hinitəşəkkülündə yalnız 600 əfraddan ibarət olan bu yeganə əskəri qüvvət 2 sənə zərfində əhalinin qeyrətilə təxminən 30 min miqdarında bir orduya münqəlib oldu.

Azərbaycan ordu təşkilatı fövqəladə ağır şərait təhtində icra olunuyordu. Mondros mütarikəsi mövcibincə Qafqasiya İslam Ordusu komandanı Nuru Paşanın təhti-idarəsindəki Türk ordusunun ricətini mütəaqib paytaxtımız general Tomsonun təhti-komandasındakı ingilis əskəri tərəfindən işğal edildi. Hərbiyyə naziri Səməd Paşa ilə bərabər hərbiyyə nəzarəti Gəncəyə nəql edilməyə məcbur oldu.

Gəncədə fəaliyyətə başlayan Azərbaycan ərkani-hərbi hər şeydən əvvəl əskəri təlimatnamə ehzarı ilə, vaxtilə Gəncədə türklər tərəfindən güşad edilən gənc zabitan məktəbinə böyük bir əhəmiyyət ətf eylədi. Kəza burada yenidən bütün Azərbaycan ordusunda çavuş kadrosunu itmam üçün bir batalyondan ibarət ehzari-çavuş məktəbləri və istehkam bölüyü məktəbi açıldı. Ağdamda metralyoz bölüyünə məxsus ehzari məktəb güşad edildi. Mərhum miralay Şeyxli Rüstəm bəyin təhti-idarəsində (axirən bolşeviklər tərəfindən edam edilmiş) topçu firqəsi təşkil edildi.

Azərbaycan ordusunun təşkilatı bərvəchi-ati idi. Hər firqə (gərək piyada və gərək süvari) 3 alaydan mütəşəkkil və hər alay 3500 süngüdən ibarətdi. Hər alayda 3 tabor, hər taborda isə 4 bölük, 3 metralyoz bölüyü (hər bölükdə 8 metralyoz vardı), 1 süvari kəşf bölüyü, 1 piyada kəşf bölüyü, 1 istehkam bölüyü, 1 telefon bölüyü və 1 bölük qeyri-müsəlləh əfrad vardı. Hər tabor 1000 əskərdən ibarətdi. Xidəmati-məxsusə ilə müvəzzəf olanlar 80-100 kişidən ibarət idi.

Gərək süvari və gərəksə piyada alaylar doğrudan-doğruya ərkani-hərbiyyəyi-ümumiyyəyə mərbut idi. Hərbiyyə naziri bütün ordunun baş komandanı idi.

Birinci firqə təşkilatı komandanlığına mirliyə Cavad Paşa təyin edilmişdir. Birinci piyada firqəyə: 1-ci Cavanşir, 2-ci Zaqatala və 3-cü Gəncə piyada alayı daxil idi. Könüllü süvari alayı isə yenidən 2 alaya təqsim edilərək 1-ci könüllü süvari alayını və 2-ci Qarabağ süvari alayını təşkil ediyordu.

1919 sənəsi həziran ayı əvvəlində Azərbaycan milli hökuməti vaxtilə Gəncəyə nəql edilən hərbiyyə nəzarətinin təkrar Bakıya nəqlinə müvəffəq oldu. Daha ərkani-hərbi-ümuminin Gəncədə bulunduğu zamanda 2-ci piyada, 2-ci topçu firqələrinin və 3-cü süvari Şəki alayının təşkilinə başlamışdı. Bilaxirə 2-ci Azərbaycan firqəsi təşəkkül etdi və firqə komandanlığına mirliyə Yusif İbrahim Paşa təyin edildi. Bu firqəyə: 4-cü piyada Quba, 5-ci piyada Şəki, 5-ci piyada Bakı, 6-cı Göyçay alayları daxil idi.

2 zirehli tren, 6 zirehli avtomobil, 4 hidroplan vücuda gətirilmiş "Qars" və "Ərdahan" isimli qambotların topları da təmir edilmişdi.

Eylül ayı əvaxirinə doğru 2-ci piyada firqə komandanı 50 min əskərə məxsus qışlıq əlbisə və orduya aid sair əşya almaq üçün hökumət tərəfindən İtaliyaya ezam edilmişdir.

Gənc Azərbaycan ordusunun ilk təcrübə səfəriyyəsi, top, silah və metralyozla mücəhhəz olaraq Azərbaycan hökumətini tanımaq istəməyən Muğan səhrası Lənkəran qəzalarından bir qismini iskan edən rusları təhti-inqiyadə gətirməsi idi. Buradakı ruslar hərb və zərb görmüş köylülərdən ibarətdi. 1919 sənəsi eylül ayında bolşeviklərlə edam olunan mərhum mirliya Səlimovun təhti-komandasındakı Azərbaycan ordusu salifüzzikr rus əhalisini tənkil üçün Muğan və Lənkərana doğru hərəkət etdi. Bakı əhalisi gənc əskərini ilk səfərə, pək mütəhəyyic olaraq stasyona qədər "Yaşasın əskərlərimiz!" nidaları ilə təşyi ediyordu. Ordu Hacıqabul mövqeindən Lənkərana təxminən 450 kilometro qədər susuz səhralardan keçən məsafəyi yazın sıcaq günlərində 10-12 gün ərzində bilaarizə gedib gələ bildi. Asi ruslar tamamilə tərkisilah edilərək kəndilərindən 24 top və 6 metralyoz zəbt edildi. Bütün səfər əsnasında qitədə heç bir intizamsızlıq baş göstərmədiyi kibi hərbiyyə nazirinin orduya xitabən nəşr olunan əmrnaməsində ayrıca müqəyyəd olduğu vəchilə əhalinin hüququna da fövqəladə riayət edilmiş idi.

Digər bir səfər də Zəngəzur vilayətinə qarşı icra edildi. Zəngəzurda məskun ermənilər Erivan daşnaqları tərəfindən təhrik və təşviq edilərək bu vilayəti kəndilərinə ilhaq etmək niyyəti ilə Azərbaycan hakimiyyətini tanımıyorlardı. 1919 sənəsi təşriniəvvəl ayında mirliya Cavad Paşanın təhti-komandasında Zəngəzur ermənilərinə qarşı hərəkati-əskəriyyə başladı. Bu səfər bir aydan fəzlə davam etdi. Nəhayət, Azərbaycan ordusu ermənilərin son tutunacaq müstehkam mövqelari olan "Diğ"ə qarşı qüvvətli bir təərrüz icra etdiyi zaman, Erivan hökuməti Gürcüstanda bulunan ingilis komissarının təvəssütünə müraciət etdi və mumaileyhin məsələyə ciddiyyətlə müdaxiləsi üzərinə təərrüz durduruldu.

Fəqət Azərbaycan ordusu bütün qabiliyyət və əskəri-əhliyyətini "Əskəran müharibəsi" ünvanilə məşhur olan müharibədə isbat etdi. 1920 sənəsində 22 mart Novruz bayramı gecəsi Qarabağ vilayətinin dağ cəhətlərində məskun ermənilər xainanə bir surətdə qiyam edərək "Əskəran keçidi"ni tutdular. Qarabağın dağlıq cəhəti sair Azərbaycan qismində yüksək dağlarla ayrılıyor. "Əskəran keçidi" Yevlax ovası ilə Qarabağın dağ qismi arasında yeganə keçiddir. Vaxtilə burası qədim Əskəran qalası idi. Əskəranın zəbtilə ermənilər Qarabağın dağlıq cəhətini sair Azərbaycandan ayırıb bütün bu vilayətin əskəri və mülki məmurunu təhti-əsarətə almışdı. Şuşa, Xankəndi, Cəbrayıl qəzasının mühafiz əskəri 12 gecə və gündüz Erivandan gələn general Dronun təhti-idarəsindəki erməni çetələrinin qüvvətli təərrüzlərinə məruz qaldı. Çetələr erməni zabitləri tərəfindən idarə ediliyor, hətta bunların miyanında müntəzəm erməni ordusu belə hərbdə iştirak ediyordu. Asilər top və metralyozlarla mücəhhəz idi. Bilaxirə bütün bu hadisənin Ermənistan hökuməti tərəfindən ehdas və bolşeviklər tərəfindən dəxi təyid edildiyi məlum oldu. Azərbaycan hökuməti şu sırada iki atəş arasında qalmış oldu. Bir tərəfdən Şimal hüdudumuzda Qızıl ordu təşhidatda bulunmuş, digər tərəfdən də bütün Qarabağ erməni ordusu tərəfindən işğal edilmişdi. Şöylə ki, Qarabağ Azərbaycan valii-ümumisi vilayət qarnizonunun həyatı tamamilə təhlükədə olub, hər an qətliama müntəzir idilər. **Hökumət Qarabağı xilas etmək məcburiyyətində idi. Bu səbəbdən dolayı əskər öncəbhəsində mirliya Səlimovun təhti-komandasında qüvvətli bir ordu sövq edildi. 3 nisan tarixində sabah erkən Azərbaycan ordusu ermənilərə qarşı qüvvətli bir təərrüz yapdı. 10, 12 gün zərfində ermənilər Əskəran istehkamlarını təqviyə etməyə və müntəzəm xəndəklər, hətta bəzi yerlərdə möhkəm sipərlər qazmağa müvəffəq olmuşlardı. Eyni gün axşama doğru ermənilər tədricən qaçmağa başladılar və Əskəranın yüksək təpələrində təkrar Azərbaycan bayrağı təməvvücə başladı. Hər bir erməni köyü, hətta hər bir qaya müharibələrlə təsxir ediliyordu, etiraf etməli ki, ermənilər məənidanə bir surətdə müqavimət göstərərək cəsuranə müharibə ediyorlardı. Yalnız fərdası gecə Azərbaycan ordusu Şuşa qalasına daxil ola bildi və Şuşa, Xankəndi müafizi-əskəriyyəsinə iltihaq etdi. Ermənilərin inhizamı ilə nəticələnən bu müharibədən sonra, cəbhədə bulunan Azərbaycan hərbiyyə naziri Səməd Paşa şəxsən zabitan və orduya, xain düşmənə qarşı ehraz eylədiyi qalibiyyətindən dolayı bəyani-təşəkkür eyləmiş, mumiileyh kəndi nitqində söyləmişdir ki, qəhrəman əskərlər, bən şəxsən Almaniya cəbhəsində bir çox müharibələrdə bulundum. Fəqət sizin qədər qəhrəman əskərlərə nadirən təsadüf etdim. Siz qanınızla gənc Azərbaycan ordusunun namusunu mühafizə etdiniz. Əskərlər isə kəndi sevgili komandanlarını "Yaşasın Azərbaycan!" nidasilə qarşıladılar.**

Hakəza, Azərbaycan ordusu kəndi şərəf və namusunu, zavallı vətənin düçar olduğu son hailə əsnasında da müdafiə eylədi və vətəninə olan mərbutiyyətini bir dəfə daha isbat eylədi. Hüda və iğfal ilə məmləkətinin bolşeviklər tərəfindən istilasını görən əhali Azərbaycanın hər köşəsində qələyan içərisində bu mənhus qüvvəti üzərindən atmaq üçün üsyana qalxdığı zaman bütün zabitan və ordu əhaliyə iltihaq edərək müənnidanə bir surətdə istiqlalını müdafiə ediyordu. Gəncə, Qarabağ, Zaqatala, Şəki, Lənkəran və sair yerlərdə zühur edən üsyanın özəyini Azərbaycan ordusunun baqiyəsi təşkil ediyordu. Bolşeviklər Gəncə və Qarabağ ordusu tərəfindən yedikləri zərbələrlə nə qədər əzim tələfat verdiklərini və Yevlaxa qədər qovulduqlarını pək iyi xatırlasalar gərəkdir. Komandansız qalan Azərbaycan ordusu mütəfərrik müfrəzlər halında vətəninin hər guşəsində sayı etibarilə böyük bir faiqiyyət təşkil edən düşmənə qarşı qəhrəmanca müharibə edərək son nəfəsinə qədər məmləkətinin hürriyyət və şərəfini müdafiə ediyordu. Topçu və süvari bölükləri də kəndilərini müdafiə edə-edə İran və Türkiyəyə iltica etdilər. Bunlardan bir qismi Qars və Sarıqamış müharibələrində türkiyəli qardaşları ilə yanyana vuruşdular.

**1920 sənəsi 22 mart Novruz bayramı münasibətilə icra edilən son rəsmi keçidi dəxi təhəttür etməmək qeyri-mümkündür. Əcəba hansı azərbaycanlı o məsud günü xatırlamıyor? Ordunun qabiliyyət və intizamı, mənəviyyatı təsəvvürün fövqündə idi. Əcnəbi süfərası az bir zamanda vəsaitsizlik içində, bu qədər müntəzəm təşkilata malik bir əskəri qüvvət vücuda gətirildiyinə heyran qalıyordu. Əhalidən bir çoxu duyduğu fərti-məxsusiyyətdən ağlıyordu. O gün Azərbaycanın ən bəxtiyar günü idi, fəqət... Fəqət Azərbaycan ordusunun son rəsmi keçidi idi. Zabitan və əskərlər heç bir vaxt bu günü unudamazlar. Hala bu günə qədər o şanlı milli marşımızın dadlı tərənnümü qulaqlarımızda ehtizaz ediyor və gözlərimizin önündə vətənin məsud və məsrur günləri canlanıyor. Bundan da ruh alıyor, istiqbalı ümidlə bəkliyoruz.**

**"Odlu yurd",**
**28 Mayıs 1931, №3**

| | |
|---|---|
| Müaf | - əfv olunmuş, bağışlanmış |
| Səbqət | - önə keçmə |
| Təsəllüt | - çox incitmə, təcavüz |
| Şitab | - tələsən |
| Hin | - zaman, vaxt |
| Ehzar | - çağırma, hüzura gətirmə |
| Bərvəch | - uyğun, üzrə |
| Firqə | - bölük, dəstə |
| Mir | - başçı, rəis |
| Əvaxir | - axırlar, sonlar |
| İskan | - məskən |
| İnqiyad | - itaətetmə |
| Salifüzzikr | - yuxarıda xatırladılmış |
| Tənkil | - uzaqlaşdırma, başqalarına ibrət olacaq cəza vermə |
| Mütəhəyyic | - həyəcanlı |
| Arizə | - əmələ gələn |
| Ehdas | - yaratma, meydana gətirmə |
| Təşhidat | - toplama, yığma |
| Məən | - bərabər, birlikdə |
| İltihaq | - birləşmə |
| İnhizam | - məğlub olma |
| Ehraz | - nail olma |
| Hailə | - faciə |
| Hüda | - rəhbərlik |
| İğfal | - aldatma |
| Fərtimə | - həddən artıq |

P.S. *Məqaləni redaksiyaya professor Şirməmməd Hüseynov təqdim edib*

* Miralay İsrafil bəyin məqaləsindən ixtisarla nəql edilmişdir. - "Odlu yurd"